***Hüseyn Kürdoğlu***
***Məzərın başında***

Baş daşın dil açar telli saz kimi,
Haçan qəbrim üstə gəlsə Kürdoğlu.
Aşıq Şəmşir

Məzarın başında fikrə dalmışam,
Durub karvan kimi düzülü dağlar.
Çağırır elləri ziyarətinə,
Sözünlə sinəsi yazılı dağlar.

Qol qoydun axırda fələk əmrinə,
Yerin mehri nədir, göyün əmri nə?!
Ömrünü caladın dağlar ömrünə,
Saymaz bir saniyə yüz ili dağlar.

Bilirəm gəlişim əyandır sana,
Bir qətrə göz yaşım ümmandır sana.
Burda tək deyilsən, həyandır sana,
Nəsimi qayalar, Fizuli dağlar.

Dərd məni yoncudub xəcalət eylər,
Xəyalım türbəni ziyarət eylər.
Ölsəm də gəl deyər, məzəmmət eylər,
Qolları boynumdan üzülü dağlar.

Kəlbəcər yolunu bağlayır yağı,
Ot bitən cığırlar sinəmin dağı.
İgid haraylayır dilində ağı,
Sevdiyim qoyunlu, quzulu dağlar.

Göynər həsrətinlə sinəmdə ürək,
Sazın da geyinib qara bir köynək.
Saxlamış bir dədə yadigarı tək,
Qoyduğun gövhəri, qızılı dağlar.

Yaxşı ki, görmədin bu qırğınları,
Dəlidağ geyinib döyüş paltarı.
Qoruyur yatdığın ana diyarı,
Çarpışır növrağı pozulu dağlar.

1990

***Kürdoğlu H. Məzarın başında // Yurduma qurbandır sözüm. – Bakı: Sabah, 2005. – S. 324-325.***